


# QƏBƏLƏ

## MƏDƏNİYYƏTLƏRİN QOVUŞDUĞU MƏKAN

**Keçən il təxminən elə bu zaman idi. Avqustun 13-dən 23-dək Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Musiqi Xadimləri İttifaqının təşkilatçılığı ilə Qəbələdə keçirilən Beynəlxalq Musiqi Festivalının yaratdığı xoş təəssürat yalnız insanların ürəyində deyil, dağların, qayaların ucalığında da əks-səda tapmışdı.**

Tədbirə qoşulan 15 ölkənin - ABŞ, Rusiya, Çin, Xorvatiya, İtaliya, Fransa, İspaniya, Meksika, İsrail və başqa məmləkətlərin tanınmış musiqiçiləri, məşhur ifaçıları, istedadlı gəncləri sanki möcüzələrlə dolu ayrı bir aləmə düşmüşdülər. Onlar bu yerlərin əsrarəngiz gözəlliyinə heyran qalmış, festival başa çatandan sonra belə bu yaşıl donlu qədim və həmişəcavan yaşayış məskənini tərk etmək istəmirdilər...

Bir il sonra yenə də həmin məkanda, daha da gözəlləşmiş, müasirləşmiş, hüsnünə əlavə çalar qatmış Qəbələdə eyni duyğular yaşanacaqdı. Təbii ki, bu artıq İkinci Beynəlxalq Musiqi Festivalının doğurduğu ovqat olacaqdı. Gəlin tələsməyək, hər şeyi olduğu kimi möhtərəm oxucularımızın diqqətinə çatdıraq.

Festival iyulun 25-də Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Sinfonik Orkestrinin konsert proqramı ilə start götürdü. Proqramda Oqtay Zülfüqarovun "Bayram uvertürası", Fikrət Əmirovun "Fortepiano və orkestr üçün konsert"i, Qara Qarayevin "İldırımlı yollarla" baletindən parçalar və Vasif Adıgözəlovun "Fortepiano və orkestr üçün konsert" əsəri səsləndirildi. Tamaşaçılar xalq artisti Fərhad Bədəlbəylini və Murad Adıgözəlzadəni alqışlarla qarşıladılar. Beləcə dağlar diyarı Qəbələ yenidən musiqisevərləri və qonaqları böyük mehribanlıq və səmimiyyətlə qarşıladı. İlk andan şəhərdə aparılmış yenidənqurma və abadlıq işləri, yaradılmış müasir infrastruktur qonaqların diqqətini çəkdi, onlar Azərbaycanda, onun regionlarında olan inkişafdan məmnun qaldıqlarını bildirdilər.

Festivalın ikinci günü - iyulun 26-da təqdim olunan proqram da çox zəngin oldu. Həmin axşam klassik dünya musiqisi və bu musiqinin Azərbaycan inciləri səsləndirildi. "Karmen", "Koroğlu", "İspaniya dağlarında gecələr" və digər ölməz əsərlər tamaşaçıları ovsunlayaraq, sirli-sehrli bir aləmə apardı. Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestri Fəxrəddin Kərimovun və Azad Əliyevin dirijorluğu ilə çıxış etdi. Solistlərdən Murad Hüseynovun, Fəridə Məmmədovanın, Şəidə Tağızadənin, Gülnaz İsmayılovanın, Səbinə Əsədovanın, Cavid Səmədovun və pianoçu Yeganə Axundovanın ifaları maraqla qarşılandı.

Konsertdə 800-ə yaxın tamaşaçı iştirak edirdi. Təkcə Qəbələdən deyil, İsmayıllıdan, Şəkidən, Qaxdan, Oğuzdan, Zaqataladan, Gəncədən və digər bölgələrdən gələn musiqisevərlər də bu unudulmaz günlərin iştirakçısına çevrildilər.



Sonrakı günlərdə ABŞ. Rusiya, İngiltərə, Fransa və İtaliyadan gələn istedadlı musiqiçilərin, o cümlədən Yuri Başmet, Boris Berezovski kimi dünya şöhrətlilərinin, həmçinin festivalın fəxri qonağı qismində Böyük Britaniyanın Kral Flarmonik Orkestrinin ifasında səslənən ölməz əsərlər, festival axşamlarını daha füsunkar etdi.

**Tədbir iştirakçıları üçün festivalın rəsmi açılışı xüsusilə yaddaqalan oldu. Prezident İlham Əliyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və ölkəmizdə səfərdə olan YUNESKO-nun baş direktoru xanım İrina Bokova mərasimdə iştirak etdilər.**

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çıxışı maraqla dinlənildi. Ölkəmizin dilbər güşələrindən birində - Qəbələdə qonaqları salamlayan Mehriban xanım bildirdi ki, bu gözəl şəhər dünyanın ən qədim sivilizasiyalarından birinin - Qafqaz Albaniyasının paytaxtı olmuş və hər bir dövr, hər bir mədə-



niyyət burada öz izini qoymuşdur. "Buraya qədəm qoyan hər bir insan əsrlərin nəfəsini hiss edir. Hazırda dünya xəritəsində Qafqaz Albaniyası olmasa da, Qəbələ mədəniyyətin paytaxtı kimi çıxış edir", - deyən Azərbaycanın birinci xanımı bildirdi ki, bu günlərdə hamımızı bir amil - musiqi birləşdirir.

Mehriban xanım Əliyeva YUNESKO-nun baş direktoru xanım İrina Bokovaya Azərbaycana gəldiyinə və bu festivalda iştirakına görə təşəkkür etdi. O, Azərbaycan-YUNESKO əməkdaşlığının əhəmiyyətini vurğulayaraq bu əlaqələrin çoxşaxəli olduğunu söylədi. Prezident İlham Əliyevə gərgin iş qrafikinə baxmayaraq festivalın rəsmi açılışına qatıldığına görə minnətdarlıq edən Azərbaycanın birinci xanımı musiqiçiləri də salamladı və bu bayramın ilk növbədə onların sayəsində baş tutduğunu diqqətə çatdırdı. Azərbaycana səfərindən məmnun olduğunu deyən İrina Bokova bu beynəlxalq festival üçün Qəbələnin möhtəşəm səhnə olduğunu vurğuladı. "Bu festival Azərbaycanın zəngin musiqi irsi ilə tanışlığa şərait yaradır", - deyən xanım Bokova YUNESKO prinsiplərini hər zaman yüksək tutduqlarına görə Azərbaycan Prezidentinə və Mehriban xanım Əliyevaya təşəkkür etdi.

**Qəbələ Beynəlxalq musiqi festivalının əhəmiyyətindən danışan YUNESKO-nun baş direktoru dedi ki, bu bayram Azərbaycan musiqisinin ruhunu əks etdirir və gələcəkdə qəlblərin və düşüncələrin bir araya gəlməsi üçün bu cür tədbirlər mühüm əhəmiyyət daşıyır. "Azərbaycan müxtəlif mədəniyyətlərin qovuşduğu məkandır və bu festival da həmin mədəniyyətləri ən yüksək səviyyədə təqdim edəcəkdir", - deyən İrina Bokova Mehriban xanım Əliyevanın mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsindəki xidmətlərini yüksək qiymətləndirdi.**

İrina Bokova YUNESKO-nun "Qızıl Motsart" medalını Mehriban xanım Əliyevaya təqdim etdi.

Azərbaycan mədəniyyətinə dair nümayiş etdirilən videoçarx maraqla izlənildi. Sonra konsert proqramı oldu.

London Kral Filarmonik Orkestrinin ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndi. Konsetdə Dmitri Yablonski, Yuri Başmet, Emilio Ponsı, Xloe Hanslip, Fərhad Bədəlbəyli çıxış etdilər.

Gecənin sonunda Qəbələnin yay səmasını möhtəşəm atəşfəşanlıq əlvan rənglərə boyadı…

**Bütövlükdə, 10 gün davam edən Festival böyük əks-səda doğurdu. Bu möhtəşəm tədbirin əhəmiyyəti, musiqimizin inkişafı, beynəlxalq əlaqələrin möhkəmləndirilməsi və s. istiqamətdə oynadığı rol barədə söhbətə hələ qayıdıcığıq. Odur ki, burada yazımıza nöqtə qoyuruq...**

**E.HƏSƏNQIZI**

